Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# Uşaq dünyasının yorulmaz səyyahı –
# Tofiq Mahmud

**Tofiq Mahmudun 85 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2016**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**Redaktor:** **Səməd Məlikzadə**

**Ixtisas redaktoru** **Şəhla Qəmbərova**
**və buraxılışa məsul**: **Əməkdar Mədəniyyət işçisi**

**Uşaq dünyasının maraqlı səyyahı – Tofiq Mahmud:** metodiki vəsait / tərt. ed. N.Məcidova; red. S.Məlikzadə, ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2016.- 21 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2016.**

## Tərtibçidən



Gənc nəslin intelektual inkişafında və vətənpərvər ruhda yetişməsində uşaq ədəbiyyatının və mətbuatının mühüm rolu vardır. Bu istiqamətdə işlərin görülməsində uşaq yazıçılarımızın da üzərinə böyük məsuliyyət düşür. Onların yaradıcılıq fəaliyyətlərinin yeni nəslin tərbiyəsi üçün faydalı şəkildə təbliğinin nə qədər əhəmiyyətli olduğu da hamımıza məlumdur. Bu vəsait uzun illər "Göyərçin" uşaq jurnalının redaktoru işləmiş, yazıçı və şair Tofiq Mahmudun 85 illik yubileyi münasibətilə hazırlanmışdır. Vəsaitin birinci hissəsi Tofiq Mahmudun həyat və yaradıcılığından bəhs edir. İkinci hissədə isə onun yaradıcılığına həsr olunmuş tədbirlərdən söhbət açılır.

*Bəzən duyuram ki, nəhəng meşəyəm,*
*Bəzən də zərifəm, bir bənövşəyəm.*

**Tofiq Mahmud**

Tofiq Mahmud 1931-ci il noyabrın 6-da qədim Naxçıvanın gözəl bir guşəsində - Şahbuz rayonunda anadan olub, orta və ali məktəbi isə Bakıda bitirib. Təhsilini başa vurduqdan sonra Mədəniyyət Nazirliyinin müəssisələrindən birində işə başlayan Tofiq Mahmud sonralar "Azərbaycan müəllimi" qəzetinin müxbiri olub. Tale onu 1961-ci ildə "Göyərçin" jurnalının redaksiyasına gətirib. 15 ildən sonra isə ömrünün sonuna kimi bu jurnalın redaktoru işləyib. Təsadüfi deyil ki, bu jurnalı əlifbadan sonra "ikinci dərslik" adlandırırlar. Çünki uzun illər ibtidai siniflər üçün dərsliklər tərtib edilərkən ilkin mənbə kimi bu jurnala müraciət edilirdi. Uşaqların oxu vərdişlərinin inkişaf etdirilməsində bu dərginin rolu böyük olurdu. Bu da təsadüfi deyildir, "Göyərçin" balacalar üçün uşaq ədəbiyyatının ən gözəl nümunələrini öz səhifələrində dərc edirdi. Və bele bir missiyanı həyata keçirən jurnala rəhbərlik etmək, hər nömrəsində uşaqların zövqünü oxşaya bilmək böyük yaradıcılıq qabiliyyəti tələb edirdi. Tofiq Mahmud yaradıcılığında doğma yurda bağlılıq mühüm yer tutur. O, sadəcə olaraq coğrafi mənzərələri vərəqləmir, poetik duyğularla zəhmət adamlarının qayğılarından söz açır. Şair bu torpağın Kürü, Arazı boyunca addımlayaraq, gözoxşayan lövhələr yaradır. Onun yaradıcılığında dünyanın bütün qədim şəhərləri təzələşir, tikilir, qurulur, müasir görkəm alır. Məhz bu cəhətləri, bu axtarışları sayəsində Tofiq Mahmud özündən sonra zəngin ədəbi irs qoyub getmişdir.

O, poeziyanı həddən çox sevirdi. Onun üçün şeir aləmi ömrünün sonuna kimi möcüzə olaraq qaldı. Sağlığında 20-dən çox kitabı işıq üzü gördü. Ona elə gəlirdi ki, həyat poeziyasız solğun və mənasız görünər. Buna görə də qələmə sarılaraq *"poeziyanı sevmək mənim üçün həyatı və insanları sevmək deməkdir"* fikrini

qətiyyətlə dilə gətirib. Hətta ona ünvanlanan "Şeir nədir" sualına da belə cavab verib: "Gözümdəki işıqdır, könlümdəki nəğmədir".

O bu işığın nuruna bürünərək Vətən gözəlliklərinə, onun qalalarına, abidələşmiş insanlarına, qəhrəmanlarına gözəl nəğmələr qoşdu. "Vətən" adlı bir şeirində oxuyuruq:

Təkcə çəmən deyil, təkcə dağ deyil,
Solmayan əbədi çiçəkdir Vətən!
Təkcə dərə deyil, daş-torpaq deyil,
Cavanşir, Koroğlu, Babəkdir Vətən!

Onun nəzərində Nizami, Xətai, Füzuli, Sabir kimi dühalar yetirən bir Vətən nəhənglərin nəhəngi idi. Xəzərin, Göygölün, Kəpəzin, Kürün, Arazın, Həkərinin gözəlliyindən vəcdə gəlib misralarını çələng kimi hörərək Vətənin boynuna dolayırdı. Dilində ən şirin nəğməyə dönürdü yurd yerlərimiz: "Zəmidir, tarladır, pətəkdir Vətən!". Gücünü, dayağını ana torpağın sinəsindən alan şair mərdlərlə, igidlərlə fəxr edirdi. Böyük məhəbbətlə, fəxarətlə and içirdi:

Gücüm, dayağım mənim, ana torpağım mənim,
Sənə kəc baxanların gözünə batan oxam.

Tofiq Mahmudun şeirlərində insan sevgisi dil açıb danışır. Təbiətin əşrəfi sayılan bu varlığın ünvanına müəllifin münasibəti sonsuz məhəbbətdən don geyinir.

Alnıaçıq, başını şax tutub dəyanətlə yaşamağı bacaran Tofiq Mahmud rəzalətlə də üzləşmişdi, xəyanət də görmüşdü, ədalətsizliyin əzablarını da çəkmişdi. Amma ürəyi təmiz, kindən, küdurətdən uzaq idi. Şair oxucularına belə məsləhət verirdi: *"Pislikləri unudun. Həmişə içinizdə xoş duyğular yaşadın".* Bu baxımdan onun şeirlərinin əksəriyyətində bir müdriklik duyulur, insanı düşündürür: "Şöhrət pilləsini qalxanlar bəzən hörmət pilləsini qalxa bilməyir". Özünəməxsus şeir söyləməyi olan Tofiq

Mahmud lirikası səmimi, poetik hisslərin tərcümanı kimi diqqəti çəkirdi. Onun sakit təbiətində hansı fırtınaların yatdığı yalnız şeir deyərkən bəlli olurdu. Onun *"Qızımla söhbət"* seriyasından yazdığı şeirləri kiçikyaşlı uşaqların bilik səviyyəsinə, dünya görüşünə daha çox uyğundur. Bu şeirlərdə verilən suallarda uşaq təbiətinin sadəliyi, cavablarda isə şair müdrikliyinin çalarları əks olunur:

\- Necə olur ki, hər gün
Səhər-səhər çıxır gün.
O qədər işıq salır,
İşığı hardan alır?!
Bəs necə dolu-dolu
Yağır yağış, qar, dolu?!
Niyə duman ağ olur,
Ay bəzən oraq olur?!
Göylərdə nə partlayır,
Şimşək necə parlayır?!
Hardan axıb gəlir çay,
Harda necə bitir çay?!
Hamı yatanda gecə
Nəhəng fil yatır necə?!
Necə yatır şir, bəbir,
Mənə söylə birbəbir.

Tofiq Mahmud poeziyamızın sıravi əsgəri idi. Özü demişkən, dahi olmasa da, qəlbi müdrik fikirlərlə dolu idi. Yolu hamarlıqdan, düzlükdən keçmirdi. Qarşısına çıxan kolluqların arasından belə öz cığırını salmağı, sözünü deməyi bacarırdı. Nə yazırdısa mükəmməl alınırdı.

Yatmasa da səngərə,
Bənzəyirdi əsgərə,
Ən ağır toplar kimi
Güclü idi qələmi.
Bu qələmin səsiylə
Titrədirdi aləmi.

**Tofiq Mahmud**

## *Keçiriləcək tədbirlər*

Kitabxanada Tofiq Mahmudun yubileyi münasibətilə hazırlanmış tədbirlərdən şairin doğma Azərbaycanı tərənnüm edən şeirlərindən hazırlanmış ”Ölkəmizi gəzək qarış-qarış” adlı kompazisiya təşkil edə bilərik. Bu tədbirdə şeirlərdən “*Kəlbəcər yolları”, “Basqal”, “Nabran”, “Göy göl”, “Salam Kəpəz”, “Qaragölə gedən cığır”* və s. istifadə edə bilərik.

## *Sərgi*

Kitabxanalarda sərgilərin təşkili əyani təbliğat forması-
nın ən geniş yayılmış üsuludur. Uşaq şairi Tofiq Mahmudun yubileyi münasibətilə kitabxanada şairin kitablarından ibarət sərgi təşkil edilir. Sərgidə şairin portreti, sərgi başlığından istifadə edirik. Sərgi başlığı olaraq: *“Qələmi ilə əsgərə bənzəyən şair”*, *“Uşaq dunyasınının səyyahı*”, və s. istifadə edə bilərik. Təşkil olunmuş sərgidə şairin müxtəlif illərdə çapdan çıxmış kitablarının biblioqrafik siyahısını da oxuculara təqdim etmək olar:

1. “Yola çıxıram”. Bakı: “Uşaqgəncnəşr”, 1959, 36 səh.
2. “Mənim kürəkənim”, Bakı: Xalq Yaradıcılıq Evi, 1959, 12 səh.
3. “Dibçək”, Bakı: “Uşaqgəncnəşr”, 1962, 16 səh.
4. “Buzovna qayaları”, Bakı: “Azərnəşr”, 1963, 52 səh.
5. “Utancaq oğlan”, Bakı: “Uşaqgəncnəşr”, 1964, 16 səh.
6. “Açıqdır pəncərəm”, Bakı: “Azərnəşr”, 1966, 106 səh.
7. “Alpinistlər”, Bakı: “Gənclik”, 1967, 62 səh.
8. “Meşədə səs”, Bakı: “Gənclik”, 1969, 70 səh.
9. “Ana qucağı” Bakı: “Gənclik”, 1971, 72 səh.
10.”Qızımın sualları”, Bakı: “Gənclik”, 19 səh.
11.”Dalğalar”, Bakı: “Gənclik”, 1976, 135 səh.
12.”Ulduzlar, düşüncələr”, Bakı: “Azərnəşr”,1977,111 səh.
13.”Pəncərəyə toxunan budaq”, Bakı:”Gənclik”, 1978, 134 səh.
14.”Kəpənək gözəlliyi” Bakı: “Gənclik”, 1980, 178 səh.
15.”Məhəbbətim sirr deyil”, Bakı: “Yazıçı”, 1981, 215 səh.

16.”Yerə dağılan muncuqlar”, Bakı: “Gənclik”, 1983, 271 səh.
17.”Şən şerlər”, Bakı: “İşıq”, 1983,
18.”Bu işıqla qalacağam” (şerlər, poemalar), Bakı: “Yazıçı”,1985, 256 səh.
19.”Yağış yağır dənizə” Bakı: “Gənclik”, 1985, 175 səh.
20.”Gecə qapı döyülür”, Bakı: “Gənclik”, 1988, 366 səh.
21.”Uzaqda ucalan dağlar” Bakı: “Yazıçı”, 1991, 310 səh













*Haqqında*










## *Haqqında deyilmiş fikirlər*

Tofiq Mahmud Azərbaycan tarixinin ən gözəl səhifələrində özünə layiqli yer tutmuş gözəl insan, vətəndaş və şəxsiyyət idi. O, öz həyatını cəmuyyətin gələcəyinə, uşaqlarına həsr etmişdir.

**İ .Ə. İbrahimov,**
*Akademik*

Tofiq Mahmudun bədii axtarışlarında tez-tez özünü təhlil eləmək, özünün daxili təkanlarından oyanmaq, məlum boyaların istifadəsindən qaçmaq, ələnmək, yuyunmaq, yeni-yeni mövzu mənbələri axtarmaq, təbiətə yön almaq, ədəbi köhnədə ədəbi təzəni görmək əsas yer tutur.

**Məmməd Araz,**
*xalq şairi*

Tofiq Mahmudun sinəsində dağ ürəyi çırpinırdı.

**Məmməd Aslan,**
*şair, Əməkdar mədəniyyət işçisi*

Maraqlı, qısa və şən şeirləri uşaqlar üçün daha maraqlıdır. Tofiq Mahmudun yaradıcılığı da belə şeirlərlə zəngindir. Bu şeirlərdən *"Bir ətək qoz", "Tar və konfet"* şeirini misal göstərə bilərik. Altı misralıq şeirdə uşağın atasına necə məntiqlə cavab verməsi çox maraq doğurur.

*"Göy qurşağının rəngləri"* nağılı da bədii cəhətdən çox ustalıqla yazılmış, rəngarəng şeirdir. Burada qövsi-quzehin yaranması poetik lövhələrlə canlandırılır. Tofiq Mahmud təbiəti duyan, onu vurğunluqla tərənnüm edən, hər otu, hər çiçəyi, yarpağı xarakterik cizgilər vasitəsi ilə tərənnüm edən bir şairdir. Bu nağıllar əsasında uşaqlar ilə nağıl saatı keçirmək maraqlı olar. İlk əvvəl kitabxananın facebook ünvanında elan (nağıl saatının keçiriləcəyi vaxt haqqında məlumat) yerləşdirilir. Səhnə göy qurşağının rəngləri ilə bəzədilir. Kitabxanaçı uşaqlara şairi qısaca olaraq tanıtdıqdan sonra göy qurşağı haqqında biliklərini oyrənir. Onlarla sual-cavab edir:

1) *Yağışı sevirsinizmi?*
2) *Göy qurşağı görmüsünüzmü?*
3) *Göy qurşağının hansı rəngləri var?*
4) *Göy qurşağının hansı rəngi xoşunuza gəlir?*
5) *Göy qurşağı hansı hadisədən sonra yaranır?*

6) *Göy qurşağı rənglərini təbiətdə hansı güllərdə görmüsünüz?*

Sual-cavab bitdikdən sonra kitabxanaçı nağıla başlayır:

***Kitabxanaçı:*** -Mən göyün qonağıyam,
Bəli, göy qurşağıyam.
Şimşək çaxandan sonra,
Yağış yağandan sonra,
Göy üzünə gəlirəm.
Gəlib par-par yanıram,
Qövs kimi dayanıram.
Olsa da yeddi rəngim
Min rəngə boyanıram....
Yağışın uşağıyam,
Mən bir göy qurşağıyam.
Elə parlağam, parlaq
Sarı, yaşıl, mavi, ağ!
Göydə yarım təkərəm!
Yerə işıq tökərəm!
Olsam da göy qurşağı,
Sallanıram aşağı!
Göydə rəngli qolam mən,
İşıq dolu yolam mən.
Hamı üçün parlaram,
Rənglərimi paylaram.
Mən öz vaxtımı bilib
Yavaş-yavaş itərəm,
Çiçəklərə çevrilib,
Bir də yerdə bitərəm.

**Kitabxanaçı: -** Yağışdan sonra əmələ gələn göy qurşağı ilə tanış olduq. İndi isə göy qurşağının yerdəki dostlarını tanıyaq:

Göyü, yeri sevirəm,
Çiçəkləri sevirəm.

Sübh çağı şeh oluram,
Qönçələrə doluram.
Görəndə bənövşəni,
Fərəh bürüyür məni!
Saplağına qonuram,
Heyrətimdən donuram.
Bu necə zərif çiçək,
Harda vardır belə rəng?!
Qəribə iş görürəm,
Rəngdən rəng götürürəm.
Nə gözəldir bağça-bağ,
Məni çağırır zanbaq
- Ləçəyimdə qal! – deyir
Bu rəngimi al - deyir!
Ağ rəngi elə şəffaf,
Hava kimi təmiz, saf...
Sevirəm bu çiçəyi
Qıfa bənzər ləçəyi
Qalıram bu ləçəkdə,
Körpə kimi bələkdə.

**Kitabxanaçı:** - *Göy qurşağının digər bir dostu isə Lalədir:*

Görən zaman Laləni
Lalə çağırır məni.
Alır qoynuna bəh-bəh
Məni qırmızı qədəh.
Bu rəngi içə-içə,
Qalıram bütün gecə
Çağırır boyçiçəyi,
Çiçəklərin göyçəyi.
Yer verir qucağında,
Ən zərif budağında.
Onun tünd sarı rəngi
Qəşənglərin qəşəngi.
Sanki öpüb gözümlə

Götürürəm özümlə!....
Mən düşürəm çəpərə,
Çəpərdən qantəpərə.
Alıb məni qoynuna,
Salır dərhal boynuna.
Canı odlu bir çiçək
Görürəm yanır rəng-rəng...
O qədər qalıram mən,
Bu rəngi alıram mən!
Eh nə qədər çiçək var,
Çiçəklər qədər rəng var.
Qərənfillər neçə cür,
Neçə rəngdə görünür.
Füsunkar olur hədsiz,
Açılan zaman nərgiz.
Qönçələrin incəsi,
Qızılgülün qönçəsi.
Hələ noxud çiçəyi
Alma, armud çiçəyi.
Hələ qızıl çiçəklər,
Yaşıl-yaşıl çiçəklər.
Gülxətmi, novruzgülü
Çingülü, xoruzgülü
Ləçəyinə şeh düzən
Çobanyastığı, süsən...
İncigülü, nilufər,
Eh, çiçək var nə qədər!
Öpüb bu çiçəkləri
Götürürəm rəngləri!
Elə ki, çıxır günəş,
Dünyaya baxır günəş
Axtarır bizi bir-bir,
Çevirib bir buxara,
Qaldırır buludlara.

Buludlar – beşiyimiz,
Evimiz eşiyimiz!
Çaxan kimi şimşəklər,
Qalxan kimi küləklər
Daralan buludları,
Qaralan buludları
Vurur, dağıdır, sökür,
Ağladıb yağış tökür.
Yağış dayanan kimi,
Göydə açılan kimi
Günəşin odu, zəri,
İşıqladır rəngləri!
Mən göyün qonağıyam,
Bəli göy qurşağıyam.
Verib mənə rəngləri,
Torpağın çiçəkləri.
İtsəmdə birdən-birə
Qonaq gedirəm yerə.
Beləcə aram-aram
Təzədən yaranıram.
Gözəl hisslərlə yanan
Ürəklər içindəyəm.
Sübh günəşlə oyanan
Çiçəklər içindəyəm

Tofiq Mahmud şeirlərlə yanaşı, uşaqlar üçün maraqlı tapmacalar, bənzətmələr də yazmışdır. Onun bənzətmələri şeirlərini adilikdən uzaqlaşdıran bədii peyzaj kimi yadda qalır. Üç cildlik kitabının birincisində toplanmış *"Eyni sözlər, bəs mənası"* bölməsində verilmiş bənzətmələrdən viktorina təşkil edə bilərik. Bu bənzətmələr uşaqlarin düşünmə qabiliyyətini artırar, onlarda müəyyən hərəkət, əşya haqqında konkret fikir formalaşdırar. Viktorina zamanı kitabxanaçı bənzətmələri oxuyub uşaqlara onun

verilmiş mənalarını izah edir. Bu viktorinada müxtəlif şəkillərdən əyani vəsait kimi istifadə edə bilərik.

1) Dərhal gücünə odun
Alışıb yandı odun

2) Qızım, götür, qələm yaz,
Ölkəmizə gəldi yaz.

3) Ay göydə yana-yana,
İşıq səpir hər yana!

4) Mən çırpıram tut,
Bir-bir göydə tut.

5) Gedirəm bağa sarı,
Almalar var: al, sarı.

6) Yüyəni tez mənə at,
Gözləyə bilməyir at!

7) Əlin soyuqdan
Olubdur çat-çat,
Tələs, tez elə
Qardaş, kəndə çat!

8) Payızda dəydi üzüm,
Mən onu necə üzüm?!
Heç bağa gəlməmişəm,
Axı qaradır üzüm!

9) *Açar* var, açar,
Qapılar açar.

10) Dəyib qayaya daşa,
Su axır daşa-daşa

11) Neçə rəngə çalır göy,
Qırmızı, al, yaşıl, göy

12) İşlədim, əlimdə bel,
Az qala əyilsin bel!

Fəal iştirakına görə uşaqlar mükafatlandırılır.

O, elə bir zamanda ədəbi mühitə gəlmişdi ki, Azərbaycan ədəbiyyatının tanınmış simaları - Səməd Vurğun, Rəsul Rza, Məmməd Rahim, Süleyman Rəhimov, Mehdi Hüseyn, Əli Vəliyev, Ənvər Əlibəyli, İslam Səfərli kimi sənətkarlarla görüşmək, onlardan məsləhət almaq qismətinə çıxmışdı. Xatirələrinin birində ömrünün o bəxtəvər günlərini xatırlayaraq yazırdı: "Yazıçılar İttifaqında keçirilən "Gənclər günü"ndə bir dəfə Səməd Vurğun iki şeirimdən birini bəyəndi. O vaxt uçmağa qanadım yox idi. Lakin sonralar başa düşdüm ki, həmin şeir çox

zəifdir. Bəs böyük sənətkar onu nə üçün bəyənmişdi? Demə, Səməd Vurğun alicənablıq, insanlıq göstərmiş, qəlbimə dəymək, ruhdan salmaq, qol-qanadımı qırmaq istəməmişdi..." Elə bu xeyir-duanın da qədəmləri yüngül olub. Şairin ilk şeiri 1953-cü ildə "Azərbaycan" jurnalında işıq üzü görüb. Bununla da mətbuata yolu açılan Tofiq Mahmud ədəbi mühitin ən fəal qələm sahiblərindən birinə çevrilib.

Çox dürüst və dəqiq bir fikirdir. Şair başına gələnlərdən sanki dərs alaraq xiffətlə söyləyib ki: "Boğazdan yuxarı hörmət, onun arxasında minnət görmüşəm". Ona görə də əsl hörməti qazanmaq çətindir - deyib. Əmrin, yumruğun, hökmün, şərin, şəbədənin, böhtanın, qərəzin sayəsində nə nüfuz qazanmaq olar, nə hörmətə sahib durmaq. Bir çiçək bitirənin, ağac əkənin hörməti daha çox olar, nəinki şöhrətin havasına uyub vəzifənin yaxasından bərk yapışanların.

Tofiq Mahmudun lirikası da səmimi və təbii hisslərin poetik tərcümanı kimi diqqət çəkir. Yerin də, göyün də dəyişdiyi bir zamanda məhəbbətin əvvəlki təravətlə ürəkdə yaşamasının səbəbini sevginin müqəddəsliyinə, əvəzsizliyinə bağlayan şairin "çox şeyi unutmaq olar, təkcə məhəbbəti yox" söyləməsi rəngsiz yuxulardan, yelkənsiz duyğulardan, ümmansız arzulardan libas geyib. Bəzən də məhəbbət ünvanlı şeirlərində ömrünə payız ovqatı çökmüş şairin həsəd və xiffəti də boylanır:

Heç öyünmə, Tofiq Mahmud,
Ha özünü gənc kimi tut,
Yaz çağını örtür bulud,
Qızlar sənə baxmır daha!

*Şairin adına təsis edilmiş "Tofiq Mahmud mükafatı" hər il ən yaxşı uşaq şeirlərinin müəlliflərinə təqdim olunur.*

# Ədəbi-bədii gecə

Kitabxanada yazıçıların yubileyi münasibətilə keçirilən ədəbi-bədii gecələrin yubilyarın həyat və yaradıcılığını tanıtmaqda xüsusi əhəmiyyəti vardır. *Tofiq Mahmud yaradıcılığı əsasında hazırlanmış "Oxu, öyrən, gəz, tanı, Doğma Azərbaycanı"* adlı ədəbi-bədii gecənin təşkilində səhnə Azərbaycanı tərənnüm edən şəkillərlə, bəzədilir.

**Aparıcı: -** Doğma diyarı sevdirmək, onun keçmişi, bu günü və gələcəyi haqqında maraqlı məlumat vermək uşaq ədəbiyyatının qarşısında duran başlıca vəzifələrdəndir.

**Aparıcı: -** Tofiq Mahmudun yaradıcılığında da doğma yurda bağlılıq mühüm yer tutur. Şair öz şeirlərində Azərbaycanın şəhərlərinin, kəndlərinin gözəlliyinin poetik xəritəsini yaradırdı.

**Aparıcı: -** O balaca qəhrəmanlarını Kəlbəcərə, İsmayıllıya, Girdimançay sahilinə, Lahıca, Basqala, Qaranohura, İçərişəhərə, Nabrana, Gəncəyə və digər yerlərə qiyabi səyahətə aparırdı.

**Aparıcı:** - Çünki o, Azərbaycan təbiətini çox sevirdi. Doğma torpağımızı, kəndlərimizi, şəhərlərimizi, meşələrimizi, dağlarımızı qarış-qarış gəzən şair, görüb duyduqlarını vurğunluqla şeirə çevirirdi.

**Aparıcı:** -"Yardımlıda payız", "Mənim ana torpağım", "Qubadlıda Leysan", "Qusar lövhələri", " Buzovna qayaları", "Qışda dağ meşəsi", "Ceyranbatan" və s. şeirlərində Azərbaycan torpağı ustalıqla tərənnüm edilir.

**Aparıcı: -** Bu gun Kəlbəcəri, Laçını, Şuşanı görməyən balalarımızda bu şeirlərlə erməni tapdağında olan yurdlarımız haqqında təssəvvürlər yaranır. İlk əvvəl gəlin doğma Bakımıza "Xəzərin sahillərinə" səyahət edək:

**Oxucu: -** Heç bilsən nə gözəldir
Xəzərin sahilləri.
Burda fərəhlə keçir
Ömrümüzün illəri.

**Oxucu: -** Sahillər bəzən aydın,

Bəzən yüngül dumandır.
O qarşıda gördüyün
Haylı-küylü limandır,
Limandan axşam-səhər
Gəmilər gedər-gələr.

**Oxucu: -** Nədir o sahildəki,
Sapsarı bir gölmüdür?!
Yoxsa qızıl qönçəli
Çiçəkmidir, gülmüdür?!
**Oxucu: -** Yox, yox, zəfərandır o,
Əlvan gülüstandır o.
Zəfəran saçaqları
Batan günəş tək sarı..

**Oxucu: -** Elin şöhrəti-şanı,
Qara şanı,ağ şanı
Durna gözünə bənzər,
Nə şirindir gilələr.

**Oxucu:** -Mərdəkan bağlarının
Gülünə gül çatarmı?!
Buzovna qayaları
Bir an belə yatarmı?!

**Oxucu: -** Düzülüb qatar-qatar
Uca-uca buruqlar.
Gözəl zeytun bağları
Sahil boyu uzanıb.
Zeytunlar salxım-salxım
Sırğa-sırğa sallanıb.

**Oxucu: -** Gödək boylu bir əncir,
Hər il meyvə gətirir.

Bir görün bitib harda –
Yosunlu qayalar

*Aparıcılar uşaqlarla birgə*

- Gəlsin, bu yerə gəlsin
Dünyanın uşaqları
Qoy hər zaman çox olsun
Xəzərin qonaqları.

Tofiq Mahmudun oxucularımızın yaxşı tanıdığı Cırtdan obrazı əsasında yazdığı sənədli povesti uşaqlarla səhnələşdirə bilərik.

Səhnəyə cırtdan paltarı geyinmiş oxucu daxil olur:

**Oxucu: -** Uşaqlar, yəqinki, siz məni yaxşı tanımırsınız?! Ola bilməz, mən Cırtdanam, sevdiyiniz Cırtdan. Nə dediniz?! Hə, başa düşdüm. Demək istəyirsiniz ki, Cırtdan ancaq nağılda, kitabda olur. Elədir! Elə mən həmin kitabdakı, nağıldakı Cırtdanam. Baxın, diqqətlə baxın, o Cırtdana oxşayıram, yoxsa yox? Mən nağıldan, kitabdan çıxıb sizin yanınıza gəlmişəm. Özü də jurnal redaksiyasında müxbirəm. Orada məni hamı çox sevir. Çünki hara göndərsələr böyük həvəslə gedirəm. Azərbaycanda elə bir yer yoxdur ki, ora ayağım dəyməsin. Hər yerdə məni böyük həvəslə qarşılayırlar. İndi sizə gəzdiyim, gördüyüm yerlər, adamlar haqqında məlumat vermək istəyirəm.

**Cırtdan Mingəçevirdə: -** Avtobusumuz Xaldana çatanda xarab oldu. Axşam düşdüyü üçün hamı əsəbiləşdi. Bu qədər uzun yolu gəl-gəl, axırda maşın xarab olsun. Sən demə, maşının təkəri boşalıb.

Səhər gözümü açıb maşını gözəl, işıqlı meydançada gördüm. Aşağı düşüb tez əl-üzümü yumağa qaçdım. Samux meşəsində stansiyaya yaxınlaşıb çaya tamaşa etmək üçün stansiyanı keçmək istədim. Buraxılış vərəqəm olmadığı üçün qoymadılar.

Jurnaldan gəldiyimi biləndən sonra mənə stansiyaya baxmağa icazə verdi. Mənzərə məni həqiqətən valeh edirdi. Hələ mən oradakı təpələrin üstündə yerləşən dənizi demirəm.

Mən bütün Mingəçeviri gəzdim. Bu balaca, amma gözəl şəhərdən ayrıla bilmirdim. Səhər çantamı yığırdım birdən qapı döyüldü. Qapını açdım. Bir balaca qız qapıda dayanmışdı.

**Məktəbli: -** Cırtdan uşaqlar səni görmək istəyir. Mən gəldim ki, səni məktəbimizə aparım.

Mən bu balaca qızla məktəbə getdim, birinci sinfin uşaqları məni sevinclə qarşıladılar. Oxudular, rəqs etdilər, şeir dedilər. Sonra balaca qızcığaz məni avtobus vağzalına qədər yola saldı. Mən onlara söz verdim ki, Mingəçevirə yenədə gələcəyəm.

**Aparıcı**: - Bu gün ömür sürən insan
Sabah ulduz olacaq.
Arzuları nağıl kimi
Yer üzündə qalacaq...

Şair Rafiq Yusifoğlunun fikrincə desək, "Həmişə böyük, işıqlı arzularla yaşayan, vətəni, insanları dərin məhəbbətlə sevən, əsərləri ilə insanları xeyirxahlığa səsləyən Tofiq Mahmud sanki bu misraları elə özü üçün yazıb. İndi onun özü də nağıllar dünyasının sakininə çevrilib. Təskinliyimiz budur ki, həyatda həmişə işıqlı duyğularla yaşayan, özündən sonra zəngin ədəbi irs qoyub gedən, dost-tanışın məhəbbətlə, hörmətlə xatırladığı qələm dostumuzun işıqlı xatirəsi həmişə bizimlədir "

# Ədəbiyyat siyahısı:


## Kitablar:

Mahmud T. Seçilmiş əsərləri: 3 cilddə; I cild. - Bakı : Tuna, 2012. - 712 s.
Mahmud T.Gecə qapı döyülür. - B. : Gənclik,1988. - 366 s.
Mahmud T.Uzaqda ucalan dağlar. - B. : Yazıçı, 1991.- 306 s.

## Haqqında:

Hacıyev A.Tofiq Mahmud (1931-1997) // Azərbaycan uşaq ədəbiyyatı.- Bakı: Təhsil, 2004. - S.199-202.
Yusifoğlu R. Tofiq Mahmud (1931-1997) // Uşaq ədəbiyyatı.- B: Təhsil, 2002. - S.160-164.
Mustafayeva X. Tofiq Mahmud // Azərbaycan uşaq ədəbiyyatı.- B: Elm, 2004. - S.277-278.

## Mətbuatda haqqında dərc edilmiş materiallar:

Tapdıq İ. Uşaq dünyasının səyyahı // Azərbaycan gəncləri. - 1985. - 31 yanvar.
Məmməd A. Şair dostumun əlli yaşı // Ədəbiyyat və incəsənət. - 1981. - 4 yanvar.
Xəlilzadə F. İşıqlı, nəğməli, yağışlı dünya: Tofiq Mahmud – 80 // Azərbaycan. - 2011.- 11 noyabr.
Yusifoğlu R. Onun işıqlı xatirəsi: Tofiq Mahmud - 80 // Ədəbiyyat qəzeti. – 2011. – 28 oktyabr.
Xəlilzadə F.Dağ ürəyi // Kaspi. - 2015. - 7-10 noyabr.
Mehdixanlı T. Yadigar məktub.: Tofiq Mahmud haqqında // Azərbaycan. - 2005. - 5 noyabr. - S.6.

# Uşaq dünyasının maraqlı səyyahı – Tofiq Mahmud

(metodik vəsait)

**Kompyuter yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 25
Çapa imzalanmışdır:
Tirajı: 100
Pulsuz